Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq

**QƏRARA ALIRAM:**

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 aprel tarixli 2090 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 346; 2009, № 6, maddə 424) ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 3.5-ci bəndin üçüncü yarımbəndində "təsdiq edilmiş" sözlərindən əvvəl "Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiya tərəfindən" sözləri əlavə edilsin.

2. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsinin 8.4.1-ci yarımbəndinin "Monitorinq göstəriciləri" sütununda "tərtibi" sözü "Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiya tərəfindən təsdiqi" sözləri ilə əvəz edilsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 7 fevral 2012-ci il.***